AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYAT TƏDRİSİ
2022, № 2 (272), 49-59

M E T O D İ K A

# X sinif ədəbiyyat dərslərində Məhəmməd Füzulinin həyat və yaradıcılığının öyrənilməsi təcrübəsindən

***Bilal Həsənli***
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent, Əməkdar müəllim. Azərbaycan Dövlət Pedaqoji Universiteti. Azərbaycan. E-mail: bilalhasanli@yahoo.com
https://orcid.org/0000-0002-6964-0546

**XÜLASƏ**
Dünya ədəbiyyatının korifeyləri sırasında layiqli yer tutan, üç dildə – Azərbaycan türkcəsi, fars və ərəb dillərində irfani, həyati problemləri əks etdirən nadir poeziyası, hikmət xəzinəsi ilə lirik və epik əsərlər müəllifi olan Məhəmməd Füzulinin yaradıcılığının müasir ədəbiyyat dərslərində tədrisi şagirdlərin mənəvi-estetik tərbiyəsində mühüm rol oynayır. M.Füzulinin həyat və yaradıcılığının ümumtəhsil məktəblərində öyrədilməsi ədəbiyyat müəllimindən yeni yanaşma, böyük məsuliyyət və yaradıcılıq tələb edir. Təcrübə göstərir ki, dahi şairin yaradıcılığında sufi simvolikası, əsərlərinin dilində ərəb-fars sözlərinin işlənilməsi ilə bağlı bir sıra çətinliklər qarşıya çıxmışdır. Bu cəhət dərsə hazırlıq dövründə nəzərə alınmalı, şagird qavramasında yaranan çətinliklər müxtəlif növ sual və tapşırıqlar, müzakirə və müəllimin şərhi vasitəsilə aradan qaldırılmalıdır.

**AÇAR SÖZLƏR**
dərs, yaradıcılıq, metod, təhlil, müzakirə

**MƏQALƏ TARİXÇƏSİ**
göndərilib: 06.05.2022
qəbul edilib:11.05.2022

**MƏQALƏNİ ÇAPA MƏSLƏHƏT BİLƏN**
Filologiya elmləri doktoru, professor İsmayıl Kazımov.

TEACHING OF AZERBAIJANI LANGUAGE AND LITERATURE
2022, NO. 2, VOL. 272, 49-59

**METHODS**

# From the experience of studying the life and work of Mahammad Fuzuli in the literature classes of the 10th grade

***Bilal Hasanli***
Doctor of Philosophy in Pedagogy, Associate Professor, Honored Teacher. Azerbaijan State Pedagogical University. Azerbaijan. E-mail: bilalhasanli@yahoo.com
https://orcid.org/0000-0002-6964-0546

## Abstract

The study of Mahammad Fuzuli's works in modern literature classes, which deserves a worthy place among the luminaries of world literature, is famous for its unique poetry, lyrical and epic works, which reflect the problems of knowledge and life in three languages – native Azerbaijani Turkish, persian and arabic plays an important role. Teaching the life and work of M.Fuzuli in secondary schools requires a new approach, great responsibility and creativity from a literature teacher. Experience shows that in Fuzuli's work there are a number of difficulties related to sufi symbolism and the use of arabic-persian words in the language of his works. This aspect should be taken into account during the preparation for the lesson, and the difficulties in understanding the student should be overcome through a system of different types of questions and assignments, discussion and teacher's commentary.

**KEYWORDS**
lesson, creativity, method, analysis, discussion

**ARTICLE HISTORY**
Received: 06.05.2022
Accepted: 11.05.2022

## Giriş / Introduction

Ümumtəhsil məktəblərinin ədəbiyyat dərslərində M.Füzulinin həyat və yaradıcılığının X sinifdə öyrənilməsinə 7 saat vaxt ayrılmışdır:

1. M.Füzulinin həyat və yaradıcılıq yolu – 1 saat.
2. "Məni candan usandırdı" qəzəli. Məzmun üzrə iş – 1 saat.
3. "Məni candan usandırdı" qəzəli. Təhlil üzrə iş – 1 saat.
4. "Leyli və Məcnun" poeması. Məzmun üzrə iş – 2 saat.
5. "Leyli və Məcnun" poeması. Təhlil üzrə iş – 2 saat.

Müasir ədəbiyyat dərslərində interaktivliyin gözlənilməsi, şagirdlərin tədqiqatçılıq fəaliyyətinə sövq edilməsi və bu məqsədlə dərsliklə yanaşı, əlavə mənbələrdən də istifadə olunması fənn kurikulumunun mühüm tələblərindəndir. Bu baxımdan M.Füzulinin həyat və yaradıcılığının tədrisi zamanı əlavə mənbələrdən istifadə imkanları genişdir. Belə ki, Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamına əsasən, şairin 6 cilddən ibarət "Əsərləri" nəşr olunub məktəb kitabxanalarına hədiyyə edilmişdir. Müəllim dərsə hazırlıq dövründə mövzu ilə əlaqədar sual və tapşırıqlar sistemini işləyərkən bu mənbələrdən yaradıcı şəkildə istifadə etməli, şagirdlərin müstəqil işinə, tədqiqatçılıq fəaliyyətinə metodik zəmin yaratmalıdır.

X sinifdə sənətkarın həyat və yaradıcılıq yolunun öyrənilməsinə həsr olunan dərsin motivasiya mərhələsində "Füzuli – 500" sənədli filmindən seçilmiş video-kadrlar nümayiş etdirilir. Bu görüntülərə əsasən yığcam müzakirə aparılaraq tədqiqat sualı müəyyənləşdirilir: "Məhəmməd Füzulinin həyat və yaradıcılıq yolundakı hansı məqamlar onu qüdrətli sənətkar kimi səciyyələndirməyə imkan verir?".

VIII sinifdə "Söz" qəzəlinin tədrisi zamanı şagirdlərin tədqiqat sualı ilə bağlı mənimsədikləri biliklər əsasında ilkin mülahizələr dinlənilərək lövhədə qeyd edilir. Şagirdlər kiçik qruplarda müəllimin tapşırığına əsasən sənətkarın həyat və yaradıcılığı üzrə dərslikdəki mətnlə tanış olur, sual və tapşırıqlar əsasında şairin həyat yolu, lirik əsərləri, poemaları, alleqoriyaları üzrə təqdimatlar hazırlayırlar. Təqdimatların müzakirəsi zamanı M.Füzulinin Bağdad yaxınlığında – Kərbəla şəhərində yaşamasının səbəbi şagirdlərdə maraq doğurur. Müəllimin verdiyi əlavə izahat və müzakirə nəticəsində onlara aydın olur ki, şairin atası Süleyman qədim oğuzların Bayat qəbiləsindən olan Azərbaycan türküdür. O, XV əsrin sonlarında İraqa köçərək Şərqin mədəniyyət mərkəzlərindən olan Bağdad şəhəri yaxınlığında məskunlaşmış azərbaycanlılardandır. Şagirdlərin VII sinifdə "Azərbaycan tarixi"

dərsliyindən mənimsədikləri biliklər xatırladılaraq göstərilir ki, XVI əsrin əvvəllərində İraq Səfəvilər dövlətinin hakimiyyəti altında olmuşdur.

Şair müəllifi olduğu qitədə doğulduğu, yaşadığı və dəfn olunduğu Kərbəla haqqında yazırdı:

Ey Füzuli, məskənim çün Kərbəladır, şeirimin
Hörməti hər yerdə vardır, xəlq onun müştağıdır.
Nə qızıldır, nə gümüş, nə ləlü, nə mirvarıdır,
Sadə torpaqdırsa, lakin Kərbəla torpağıdır.

Şairin təhsili ilə bağlı məqamlara toxunan şagirdlər qeyd edirlər ki, Füzuli kiçik yaşlarından təhsilə, bilik qazanmağa can atmış, Kərbəla və Bağdadın təhsil ocaqlarında bir çox elmlərə dərindən yiyələnmişdir. Mənbələrdə onun universal bilik sahibi olduğu, dövrünün elmi nailiyyətlərini dərindən mənimsədiyi, astronomiya, ədəbiyyat, musiqi, fəlsəfə ilə yanaşı, astrologiya, tibb, cəbr və s. elmlərin də bir sıra sahələrinə bələd olduğu qeyd edilir. Əsərlərindəki yüksək bədiilik, elmi məzmun, ədəbi-fəlsəfi və dini ideyalar onun mükəmməl təhsil aldığını, mütəfəkkir sənətkar, böyük söz ustadı olduğunu bir daha sübut edir. Füzulinin bir sənətkar kimi püxtələşməsində özünəqədərki klassik milli ədəbi-bədii irsi və folkloru mənimsəməsi, Yaxın və Orta Şərq xalqlarının ədəbiyyatına, xüsusən də ərəb-fars mədəniyyətinə dərindən bələdçiliyi böyük rol oynamışdır. Bu fikirlərin müzakirəsi zamanı şagirdlərə aydın olur ki, Füzuli gənc yaşlarından bədii yaradıcılığa başlamış, “şeir içində, əlbəttə, hikmət vardır” – deyərək, “ülum və fünunu” (elmləri və fənləri) öyrənmiş bir sənətkar olmağa çalışmışdır. Qazandığı elmi biliklər onun yaradıcılığına xüsusi təsir göstərmiş, elmiliyin və bədiiliyin vəhdətində kamil sənət nümunələrinin yaranmasına səbəb olmuşdur. Mütəfəkkir şair özünəməxsus bədii üslubda əsərlər yazmaq niyyəti ilə daim yeni deyim, orijinal fikir, ideya, poetik forma axtarışında olmuş və yüksək ideya-bədii dəyərə malik söz sənəti nümunələri yaratmışdır.

Müzakirə zamanı qeyd edilir ki, Füzulinin bədii irsi zəngin və çoxcəhətlidir. O, Azərbaycan türkcəsində qəzəl, qəsidə, tərkibbənd, tərcibənd, qitə və rübailərdən ibarət “Divan”, “Bəngü-Badə”, “Söhbətül-Əsmar”, “Leyli və Məcnun” poemalarının, “Şikayətnamə” satirik nəsr əsərinin, fars dilində yazdığı “Səhhət və Mərəz”, “Rindü-Zahid”, “Yeddi cam” əsərlərinin, fars və ərəbcə “Divan”ların müəllifidir.

Füzuli yaradıcılığına həmişə böyük məsuliyyətlə yanaşmış, öz əsərləri üzərində ciddi işləmiş, daim yaradıcılıq axtarışında olmuşdur. Dərsin gedişi zamanı müəllim əlavə mənbədən istifadə edərək sənətkarın aşağıdakı fikirlərini şagirdlərin diqqətinə çatdırır və bu məsələ ilə əlaqədar onlara öz münasibətlərini bildirməyi tapşırır: “Elə

vaxtlar olmuşdur ki, gecə səhərə qədər oyaqlıq zəhərini dadmış və bağrımın qanı ilə bir məzmunu tapıb yazmışam. Səhər olanda başqa şairlərlə uyğun gəldiyini görüb, yazdığımı pozmuşam, ona sahib çıxmamışam (şeirlərim sırasına salmamışam). Elə vaxtlar da olmuşdur ki, gündüz axşama qədər düşüncə dəryasına dalıb, söz almazı ilə məna gövhərini deşmişəm. Bunu görənlər: bu məzmun anlaşılmır, bu ləfz xalq arasında işlənilmir və xoşagəlməzdir, deyər-deməz, o məzmun gözümdən düşmüş, hətta onun üzünü köçürməmişəm" [7, s.17].

Müzakirə zamanı şagirdlərin diqqəti şairin Azərbaycan ədəbi dilinin inkişafındakı roluna yönəldilir. Qeyd edilir ki, müasiri olan ədiblərin o dövrdə Azərbaycan türkcəsində əsər yazmaqda çətinlik çəkdikləri üçün öz əsərlərini fars dilində qələmə alması şairi düşündürmüş və o, bu vəziyyətə etiraz olaraq yazmışdır:

Ol səbəbdən farsi ləfzilə çoxdur nəzm kim,
Nəzmi-nazik türk ləfzilə ikən düşvar olur.
Ləhceyi türki qəbuli-nəzm tərkib eyləsə,
Əksəri-əlfazi namərbut, nahəmvar olur.
...Məndə tövfiq olsa bu düşvari asan eylərəm,
Növbahar olğac dikəndən bərgi-gül izhar olur.

Mütəfəkkir sənətkar Azərbaycan dilində kamil, nəzmi-nazik (incə nəzm) nümunələr yaratmaqla onun imkanlarını, ifadə, ibarə gözəlliklərinin sonsuzluğunu lirik və epik əsərlərində parlaq nümunələrlə əks etdirmişdir.

Dərs zamanı şairin yaradıcılığında qəzəl janrının mühüm yer tutmasının səbəbləri barədə söhbətlər aparılır. Qeyd edilir ki, Füzuli Azərbaycan dilində yazdığı "Divan"ının müqəddiməsində qəzəldən danışarkən bu janrın bir neçə xüsusiyyətini qeyd etmişdir:

Qəzəldir səfabəxşi-əhli-nəzər,
Qəzəldir güli-busitani-hünər.
Qəzali-qəzəl seydi asan degil,
Qəzəl münkiri əhli-irfan degil.
Qəzəl bildirir şairin qüdrətin,
Qəzəl artırır nazimin şöhrətin.
Könül, gərçi əşara çox rəsm var,
Qəzəl rəsmin et cümlədən ixtiyar.

Ki, hər məhfilin ziynətidir qəzəl,
Xirədməndlər sənətidir qəzəl.
Qəzəl de ki, məşhuri-dövran ola,
Oxumaq da, yazmaq da asan ola.

Şagirdlərin nəzərinə çatdırılır ki, bu misralarda qəzəlin "məşhuri-dövran" olması, asan oxunub yazılması haqqında mülahizə yürüdən, öz fikirlərini cəmiyyətə çatdıra bilmək üçün qəzəl janrından istifadə edən sənətkar, farsca "Divan"ına yazdığı müqəddimədə qəzəl haqqında olan fikirlərini tamamlayır. O, burada qəzəl janrının mübhəm ibarələrdən uzaq, məhəbbət mövzusuna uyğunluğunu göstərir, xüsusilə də öz qəzəllərinin sənətkarlıq və mənaca dərinliyindən bəhs edir.

Dərs zamanı şagirdlərin digər əlavə mənbə üzərində işi təşkil edilir, onlara aşağıdakı fikirləri diqqətlə oxuyub münasibət bildirmək tapşırığı verilir: "Füzuli aşiqanə ifadələrlə elə gözəl üstüörtülü fikirlər söyləmişdir ki, bunlar ancaq düzgün düşünə bilən kamil insanlar tərəfindən dərk edilə bilər. Eyni zamanda, şair məhəbbət mövzusunda sadədil, zərif insanların zövqünü oxşayacaq əsərlər yaratmışdır. Məhz onun yazdıqları bu cəhətdən mənalıdır. Sözlərin məharətlə işlənib bir növ rəmzi məna daşıması şairin yaradıcılığına çoxmənalılıq xüsusiyyəti qatır. Sadə oxucu belə əsərləri oxuduğu zaman məhəbbət macərasından xoşlanır, şairin məhəbbəti izhar etməsini, aşiqlə məşuq arasındakı ünsiyyəti öz qəlb aləminin müəyyən arzu və istəkləri ilə bağlayır. Arif oxucu orada daha dərin ictimai-fəlsəfi mənalar görə bilir. Söz sənəti maraqlıları isə əsasən sənətkarın sözdən necə istifadə etmək məharətini izləyir" [8, s.344].

Şairin böyük sənət uğuru hesab edilən ana dili, fars və ərəb dillərində qəsidələr divanı yaratdığı qeyd olunur. Nümunələr gətirilərək şagirdlərdə böyük söz ustadının qəsidələrində janra yeni münasibət, İslam dininin müqəddəslərinə, dövrünün hökmdarlarına, tarixi hadisələrə münasibətin öz əksini tapması, müasirlərinə müraciətlə ədalət çağırışı etməsi, bu əsərlərin yüksək bədii sənətkarlıq nümunəsi olması barədə dolğun təsəvvür yaradılır. Fərqli zamanlarda yazılmış bu qəsidələrdə oxucu humanist şairin dünya, insan, zaman haqqında düşüncələri ilə tanış olmaq imkanı qazanır.

Təqdimatların müzakirəsi zamanı sənətkarın fars dilində qələmə aldığı "Rindü-Zahid", "Səhhət və Mərəz", ərəb dilində yazdığı "Mətlə ül-etiqad" adlı elmi-fəlsəfi əsərləri haqqında da fikirlər söylənilir. Qeyd edilir ki, ata ilə oğulun mükaliməsi şəklində yazılmış "Rindü-Zahid" əsərində dövrün ictimai-siyasi və əxlaqi məsələlərinə münasibət bildirilir. "Səhhət və Mərəz" əsərində Füzuli öz dövrünün

tibbi görüşlərini bədii şəkildə qələmə almış, “Mətlə ül-etiqad” əsərində isə elm, din, ilk yaradılışla bağlı fəlsəfi məsələlər, Allahın varlığı, peyğəmbərliklə əlaqədar baxışlar öz əksini tapmışdır.

Dərsin ümumiləşdirmə və nəticə çıxarılması mərhələsində sənətkarın həyat və yaradıcılıq yolunun müzakirəsi nəticəsində əldə olunmuş biliklər ümumiləşdirilərək qeyd edilir ki, mütəfəkkir şair Azərbaycan əruzunun orta əsrlərdə misilsiz nümunələri olan qiymətli əsərlərini ana dilində yazmış, eyni zamanda ərəb və fars dillərində də klassik sənət örnəkləri yaratmışdır.

Füzuli insana və söz sənətinə böyük dəyər verərək, “aləm sədəfində insandan qiymətli bir gövhər görmədiyini və insan gövhərində isə sözdən şərəfli cövhər tapmadığını” bildirmişdir. Sənətkarın fikrincə, “əsas məsələ sözü zinətləndirməkdə deyil, mənadadır. Mənalı söz kamalı doğruluqdan alar. Düz sözü təriflə də, məzəmmətlə də demək olar. Çünki söz insanlığın həqiqətindəndir. O, gah tərifə, gah da məzəmmətə layiqdir”.

Füzuli yaradıcılığında mühüm yer tutan lirik əsərlərin, poemaların, alleqoriyaların təhlili nəticəsində şagirdlər belə qənaətə gəlir ki, qüdrətli sənətkarın yaradıcılığında humanist məzmun, vətəndaşlıq mövqeyi ön planda dayanır. O, əsərlərində məhəbbət və gözəlliyi, insan qəlbinin ülvi, zərif duyğularını tərənnüm etmişdir. Sənətkar lirik şeirlərində oxucunu dünyanı, həyatı dərk etməyə, məhəbbət və gözəlliyə tapınmağa, saflıq və xeyirxahlığa səsləyir. Eyni zamanda şair əsərlərində özünün ictimai-siyasi görüşlərini, dini düşüncə, iman və əqidə duyğularını əks etdirmiş, yeri gəldikcə satira, tənqid, ifşa, yumordan istifadə edərək cəmiyyətdə və insan təbiətindəki qüsurlara da münasibət bildirərək iqtidar sahiblərini haqq yoluna çağırmışdır.

Şairin zəngin yaradıcılığı cəmiyyətin bütün zümrələri üçün məna dərinliyi, məzmun aydınlığı, ideya-bədii sənətkarlığın dərk edilməsi baxımından əlçatan olmuşdur. O, özünün bir-birindən qiymətli əsərləri ilə həm yüksək ziyalı təbəqəsini, həm şeir, sənət maraqlılarını, həm də sadə oxucu kütlələrini yaradıcılığına cəlb edə bilmişdir.

Növbəti ədəbiyyat dərsində “Məni candan usandırdı” qəzəlinin məzmununun mənimsənilməsi və təhlili üzrə iş təşkil edilir. Motivasiya: Bu mərhələ bəstəkar Cahangir Cahangirovun “Füzuli kantatası” və Şövkət Ələkbərovanın ifasında “Məni candan usandırdı” mahnısının dinlənilməsi ilə başlanır. Bu zaman şagirdlərin kantata barədə bilikləri öyrənilir, müzakirə əsasında tədqiqat sualı müəyyənləşdirilir: “Məni

candan usandırdı” qəzəlində aşiqin sevgisi və keçirdiyi hisslər hansı yeni çalarlarda əks olunmuşdur?

Şagirdlərin qəzəl janrı haqqında bilikləri müsahibə yolu ilə aşkara çıxarılır. Qeyd edilir ki, *“qəzəl”* ərəb sözü olub, mənası *“sevmək”*, *“aşiq olmaq”* deməkdir. Yaxın və Orta Şərq xalqları ədəbiyyatında lirik növün ən geniş yayılan janrı olan qəzəl, əsasən məhəbbət və gözəllik mövzularında yazılır. Bununla yanaşı, təbiət və ictimai-fəlsəfi məzmunlu qəzəllər də üstünlük təşkil edir. Müəllimin sualları əsasında qəzəlin qafiyə sistemi, mətlə və məqtə beyt, şah beyt, rədif anlayışları, beytlərin sayı barədə qazanılmış biliklər də bir daha xatırladılır [3, s.113-114].

Əsərin mətn hissəsinin oxunuşundan əvvəl “Məni candan usandırdı” qəzəlinin vəzni və bəhri barədə də söhbət aparılır. Qeyd edilir ki, şeir əruz vəzninin həzəc bəhrində yazılmışdır. Bəhrlə bağlı nəzəri məlumatlar müəllimin ifasında ifadəli oxu nümunəsi ilə konkretləşdirilir:

| məfA İlün | məfA İlün | məfA İlün | məfA İlün |
|---|---|---|---|
| Məni candan | usandırdı, | cəfadan yar | usanmazmı? |
| Fələklər yan | dı ahimdən, | muradım şəm | i yanmazmı? |

Daha sonra oxu üzrə iş təşkil edilir: qəzəlin məzmunu ilə bağlı müsahibə aparılır, tanış olmayan söz və beytlərin mənası aydınlaşdırılır.

Növbəti dərsdə qəzəlin təhlili üzrə iş təşkil edilir. Tədqiqat sualı müəyyənləşdirilir: “Qəzəldə şairin oxucuya çatdırmaq istədiyi başlıca fikir nədir?”.

Kiçik qruplar dərslikdə verilən suallar əsasında təqdimat və müzakirəyə hazırlaşırlar:

1. Qəzəl hansı mövzuda yazılıb?
2. Əsərdə təsvir olunan sevgini necə izah etmək doğru olar?
3. Lirik qəhrəmanlar – aşiq və sevgili obrazları hansı cəhətləri ilə diqqət cəlb edir?
4. Aşiqin öz eşqində sadiq, dönməz olmasının əsl səbəbi nədir?
5. Qəzəlin bədii keyfiyyətini artıran vasitələr hansılardır?

Təqdimatların müzakirəsi zamanı aydınlaşdırılır ki, Füzulinin qəzəllərində məhəbbət mövzusu mühüm yer tutur. Şairin əsərlərində sufizmin ilahi hüsn və ilahi eşqlə yanaşı, bir də “Nuri-həqqin” – ilahi qüdrətin öz yaratmışlarına – insana bəxş etdiyi həyati, bəşəri eşq və gözəllik fəlsəfəsi də mövcuddur [4, s.7].

Müzakirə zamanı şagirdlərdə “Məni candan usandırdı” qəzəlində həyat, bəşəri eşq və gözəllik fəlsəfəsinin öz əksini tapması fikri formalaşır. Əsərdəki “Desəm, ol bivəfa bilməm, inanarmı, inanmazmı?”, “Degildim mən sənə mail, sən etdin əqlimi zail” misralarındakı işarələr də burada bəşəri eşqdən bəhs edildiyini bir daha göstərir.

Şagirdlərin diqqəti əsərdəki aşiq obrazını səciyyələndirən cəhətlərə yönləndirilir. Təqdimatlarda aşiq obrazının təhlili ilə əlaqədar bildirilir ki, aşiqin şikayətləri onun bədbin ovqatını əks etdirir. Sevgidə uğursuzluğa düçar olan aşiq əsərdə ona laqeyd olan sevgili ilə qarşılaşdırılır. Uğursuz aşiqin ahından fələklər yansa da, muradının şamı yanmır. O, bədbin bir ovqatdadır. Buna səbəb başqalarına xoş münasibət göstərən sevgilisinin onun dərdindən xəstə düşən aşiqə biganə qalması, dərdinə dərman olmamasıdır.

Aşiqin sonrakı məzəmmətindən aydın olur ki, həssas aşiqin çəkdiyi iztirabların səbəbi həm də öz dərdini, sevgisini gizli saxlamasıdır. Lirik qəhrəmanı narahat edən səbəb sevgisini, çəkdiyi əzabları bivəfa saydığı yarın başa düşməməsi və onun hisslərinə inanmamasıdır.

Qəmim pünhan tutardım mən, dedilər yarə qıl rövşən,
Desəm, ol bivəfa bilməm, inanarmı, inanmazmı?

Hicran gecələrində canı od tutub yanan, qanlı göz yaşı axıdan aşiqin ahı, əfğanı xəlqi oyatsa da, qara bəxti oyanmır:

Şəbi-hicran yanar canım, tökər qan çeşmi-giryanım,
Oyadar xəlqi əfğanım, qara bəxtim oyanmazmı?

Bu beytin müzakirəsi zamanı şagirdlərin diqqəti *“qara bəxt”* ifadəsinə, epitetə cəlb edilir. Əslində 2-ci misrada “yatan bəxtin oyanması” ifadəsinin işlənməsi ilk baxışda daha məntiqli görünür. Lakin şair burada böyük sənətkarlıqla “qara” epitetinə üstünlük vermişdir. Çünki yatan bəxtin nə vaxtsa oyanmasına az da olsa, bir ümid var. Lakin “qara bəxt” ifadəsi aşiqin ümidsizliyini, bədbin ovqatını, taleyindən şikayətini daha qabarıq şəkildə ifadə edir. Aşiqin keçirdiyi təzadlı hisslər aşağıdakı beytdə də yüksək sənətkarlıqla əks etdirilmişdir:

Güli-rüxsarinə qarşu gözümdən qanlı axar su,
Həbibim, fəsli-güldür bu, axar sular bulanmazmı?

Dərdli, həssas aşiq sanki sevgilisinin bu sözləri eşidib onun məzəmmətindən inciyə biləcəyini duyaraq, küskünlük üçün onun əlinə bəhanə vermək istəmir, düşdüyü vəziyyətin, qanlı göz yaşı axıtmasının səbəbini təbiətlə bağlayır, gül, bahar fəslində çay sularının da bulanıq olması ilə əlaqələndirir. Əsərdə sevgili – məşuqə obrazı aşiqin dili ilə təqdim olunur. Qeyd edilir ki, aşiq öz şikayətlərində sevgilisini laqeydlikdə günahlandırır. Məşuqənin qeyri-adi gözəlliyi, aşiqin iztirablarına etinasızlığının mümkün səbəbləri haqqında şagirdlərin mülahizələri müzakirə olunur. Gerçək aşiqin nalə və şikayətlərini əks etdirən məcazlar – təzad, qarşılaşdırma, mübaliğə, bədii sualların, eləcə də daxili qafiyələrin əsərin bədii təsir gücünün artırılmasında rolu aydınlaşdırılır.

Müzakirə nəticəsində əldə edilən qənaətlər ümumiləşdirilərək belə nəticə çıxarılır ki, Füzuli bədii söz incisi olan bu qəzəlində insanın nəcib hisslərini, ülvi məhəbbət duyğularını, ümid və arzularını böyük sənətkarlıqla tərənnüm etmişdir.

**Nəticə / Conclusion**

Müasir ədəbiyyat dərslərində klassik sənətkarların həyat və yaradıcılığının, monoqrafik şəkildə öyrənilən əsərlərinin tədrisi aktual metodik problemlərdən biri kimi diqqət cəlb edir. İnteraktiv təlim metodları ilə keçilən müasir ədəbiyyat dərslərində şagirdlərin bədii əsəri qavraması ilə təhlili, ədəbi-nəzəri biliklər, anlayışlar arasında əlaqənin dərinləşdirilməsi diqqət mərkəzində saxlanılmalıdır. Ədəbiyyat dərslərində klassik irsin, o cümlədən M.Füzulinin həyat və yaradıcılığının öyrənilməsi bugünkü tərbiyə metodlarından, şagirdlərimizin mövzu, əsərlə bağlı düşüncələrindən təcrid olunmuş şəkildə tədris oluna bilməz. Təlimin düzgün təşkili nəticəsində şagirdlər M.Füzulinin ədəbiyyat tarixindəki rolunun yaradıcı şəxsiyyət kimi özünəməxsusluğunun müəyyənləşdirilməsində, bədii əsərlərinin təhlilində, mənəvi, emosional, estetik cəhətdən qiymətləndirilməsində müstəqillik və fəallıq nümayiş etdirirlər. Sənətkarın niyyəti, onun zaman və insan konsepsiyasının yaratdığı obrazlar sistemində, əsərin quruluşunda öz əksini necə tapması bədii əsərin ideya-məzmununun, sənətkarlıq xüsusiyyətlərinin dərindən qavranılması baxımından mühüm əhəmiyyət kəsb edir. Dərsdə ədəbiyyat tarixi və nəzəriyyəsi üzrə biliklərdən məqsədyönlü istifadə və təhlil bacarıqlarının tətbiqi nəticəsində şagirdlər sənətkarın bədii əsərlərini mənəvi-estetik meyarlar əsasında qiymətləndirirlər.

**İstifadə edilmiş ədəbiyyat / References**

1. Azərbaycan ədəbiyyatı tarixi. (2009). Altı cilddə. III cild. Bakı, Elm. 736 s.
2. Əliyev S., Həsənov B., Mustafayeva A. (2017). Ədəbiyyat. X sinif üçün dərslik. Bakı, Bakınəşr. 208 s.
3. Əsgərli Z. (2014). Poetika. İzahlı sözlük. Bakı, Elm. 262 s.
4. Füzuli M. (2004). Seçilmiş əsərləri. Bakı, Çaşıoğlu. 600 s.
5. Füzuli M. (2005). Əsərləri. Altı cilddə. I cild. Bakı, Şərq-Qərb. 400 s.
6. Füzuli M. (2005). Əsərləri. Altı cilddə. II cild. Bakı, Şərq-Qərb. 336 s.
7. Füzuli M. (2005). Əsərləri. Altı cilddə. III cild. Bakı, Şərq-Qərb. 472 s.
8. Füzuli M. (2005). Əsərləri. Altı cilddə. IV cild. Bakı, Şərq-Qərb. 344 s.
9. Füzuli M. (2005). Əsərləri. Altı cilddə. V cild. Bakı, Şərq-Qərb. 224 s.
10. Füzuli M. (2005). Əsərləri. Altı cilddə. VI cild. Bakı, Şərq-Qərb. 384 s.
11. Həsənov B., Əliyev S., Mustafayeva A. (2017). X sinif. Müəllim üçün metodik vəsait. Bakı, Bakınəşr. 208 s.
12. https://www.youtube.com/watch?v=zOTWYtu3HXU
13. https://www.youtube.com/watch?v=MzKDr2YgL6Y